# İran erməni terrorçularını dəstəkləməkdə davam edir





Dövlətimizin ərazi bütövlüyünü sözdə dəstəkləyən, Azərbaycan və İran xalqları arasında tarixi, dini və mədəni bağlardan daim söhbət açan Tehran erməni terrorçuları ilə əməkdaşlığını davam etdirir.

Xəbər verildiyi kimi, erməni terrorçusu, ASALA-nın keçmiş üzvü Martiros Jamkoçyan İrəvanınYerablur panteonunda olarkən Ermənistanın "Hraparak" qəzetinə müsahibə verib və orada məşhur ekstremist Monte Melkonyanla İran xüsusi xidmət orqanları arasında əməkdaşlıq faktlarını açıqlayıb. O bildirib ki, 1992-ci ilin yazında Monte ilə birlikdə Xocavənddə azərbaycanlı kəndlərinin "təmizlənməsi" ilə məşğul olublar.

Həmin il mayın 8-də Şuşanı da məhz İranın vasitəçilik mərhələsində itirdiyimiz yaddaşlardan silinməyib...

Bu günlərdə isə Qarabağ iqtisadi rayonunda müvəqqəti dislokasiya olunmuş Rusiya sülhməramlıları növbəti dəfə öz vəzifələrini pozaraq, 14 nəfər əcnəbinin Azərbaycan ərazisinə keçidini təmin ediblər. Məlumata görə, İran vətəndaşları olduqları bildirilən diversantlar noyabrın 24-də saat 13:00-14:00 radələrində "Mercedes-Benz" markalı avtomobildə (seriya nömrəsi 34-QA-444) sülhməramlıların postunu rahat şəkildə keçərək Xankəndiyə gəliblər və hazırda da oradadırlar. İranlıların adları da artıq məlumdur: Mohmadi Vahab Mehr Əli, Heydari Abdullah Alah Ram, Mohmadi Dariuş Avaz, Əmiritolmarani Elza Məhəmməd, Fərzad Nader Salahşuri Douraki, Məhəmməd Aref Hosseyn, Almasian Nejad Ebrahim Mohammad, Mohmadi Abdollah Mehr Əli, Mohmadi Nəsrullah Mehr Əli, Safari Hosseyn Hatəm, Kuravand Taxt Kerrot Əlişir Hüseyn, Məhəmməd Omid Mehr Əli, Məhəmmədi Muxtar Bar Əhməd, Salahşuri Douraki Kəramət Nader.

Eyni zamanda bu anti-Azərbaycan hərəkətlərilə Rusiya sülhməramlıları bir daha göstərdilər ki, onlar əslində müvəqqəti olaraq "nəzarət etdikləri" əraziyə ümumiyyətlə nəzarət etmirlər. Artıq şübhə yoxdur ki, Azərbaycan toponimlərinin hər gün təhrif edilməsi, mənasız və boş bəyanatların yayılması ilə məşğul olan sülhməramlıların ciddi məsuliyyətə cəlb edilməsinin vaxtı yetişib.

Bildirilir ki, 14 nəfərdən 12-si İranın eyni bölgəsindən - ölkənin cənub-qərbindəki İze şəhərindən gəlib. Qeyd olunur ki, İzenin də daxil olduğu xuzistan bölgəsinin əhalisinin əksəriyyətini ermənilər təşkil edir və erməni dili burada danışılan əsas dillərdən biridir. Bəzi məlumatlara görə, bu şəhərdə İran xüsusi xidmət orqanlarının terror təxribatları üzrə ixtisaslaşmış gizli bazası yerləşir.

Bəs 14 nəfərlik qrup gizli səfərlə Azərbaycanın Qarabağ bölgəsinə hansı məqsədlə gəlib? "Caliber.az" xəbər verir ki, mövcud məlumata görə, iranlılar Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə özlərini çox rahat hiss edən quldurlar üçün təxribat və terror təlimləri keçirmək, həmçinin konkret diversiyalar hazırlamaq üçün göndəriliblər. Bundan əlavə, onların Qarabağda qalan qruplara İran istehsalı olan sursatlardan istifadə etmək üçün təlim keçə biləcəkləri də bildirilir.

Bundan əvvəl isə Qarabağ iqtisadi rayonuna mütəmadi olaraq bəzi qonşu ölkələrdən silah daşındığı barədə dəfələrlə məlumatlar daxil olub.

Ekspertlərin fikrincə, görünən odur ki, hələ də 44 günlük müharibənin nəticələri ilə barışa bilməyən və bölgədəki nüfuzunu itirməkdə davam edən Tehran rejimi hazırda müvəqqəti olaraq Rusiya sülhməramlılarının nəzarətində olan ərazini Azərbaycana qarşı terror arenasına çevirmək planı üzərində işləyir. Bu anti-insani planların qarşısını almaq üçün isə təxirəsalınmaz preventiv tədbirlər həyata keçirməklə yanaşı, hamının ayıq-sayıq olması son dərəcə zəruridir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 4 dekabr.- S. 4.